HEYDAR ALIYEV
CENTER



# Carole
# Feuerman

SUDA YENİDƏN DOĞULANLAR | REBORN INTO THE WATER

HEYDAR ALIYEV CENTER

FEUERMAN

# SUDA YENİDƏN DOĞULANLAR

## REBORN INTO THE WATER

Baku 2026





Kerol Förmen 1945-ci ildə ABŞ-nin Konnektikut ştatının Hartford şəhərində anadan olmuşdur. O, yetmişinci illərin ikinci yarısında, postmodernist üsluba əsaslanan fraqment poetikası nəzdində əsərlər yaratmış, daha sonra isə güclü realist təsirə malik bütöv bədən heykəlləri yaratmağa istiqamətlənmişdir. 1960-cı illərin ikinci yarısında Förmenin "pop-art" üslubuna fərdi yanaşması onun işlərini hiperrealist heykəltaraşlar tərəfindən yaradılan əsərlərdən fərqləndirirdi. O, daha çox üzgüçüləri və rəqqasları təsvir edən fiqurativ heykəlləri ilə tanınır.

Förmenin incəsənətlə ilk təmasları uşaqlıq illərində başlamışdır. On bir yaşında o, sinif yoldaşlarına rəsm çəkməyi öyrətmiş, lakin insan fiquruna olan marağı tezliklə mübahisələrə səbəb olmuşdur. Cəsur bir çılpaq eskiz məktəbdə danlanmaya gətirib çıxarmış, amma ona sahib olduğu istedadı mütləq davam etdirməli olduğuna inandırmışdır. O, on yaşında ikən anasının icazəsi ilə özəl incəsənət dərsləri ilə məşğul olmağa başlayır. Anası ona müxtəlif rəngli boyalar və fırçalar dolu yağlı boya seti hədiyyə edir. Beləliklə o, natürmort, portret və peyzajlar yaratmağa başlayır. On iki yaşında o, artıq incəsənəti öz peşəsi kimi seçir. 1955-ci ildə o, Nyu-York ştatının şimal bölgəsində ailə evinin layihələndirilməsində babasına kömək edərək həm uzaqgörənliyini, həm də çevikliyini nümayiş etdirmişdir. O, burada ev tikilməzdən əvvəl otaqların sərhədlərini boya spreyi vasitəsilə çəmənliyin üzərində əks etdirmişdir.

O, illüstrasiya ixtisası üzrə təhsilinə Templ Universitetində başlamış və Nyu-Yorkdakı Vizual İncəsənət Məktəbində davam etdirmişdir. Valideynləri tərəfindən maddi dəstəkdən məhrum edildikdən sonra özünü təmin etməkdə qərarlı olan Förmen, diplomunu tamamlayarkən eyni zamanda illüstrator kimi işləmişdir. Musiqi sənayesində aldığı sifarişlər vasitəsilə o, "The Rolling Stones" və Elis Kuper kimi sənətkarların albomları üçün üz qabıqları hazırlamışdır. O, həmçinin "The New York Times" qəzetinin rəy bölməsi üçün də rəsmlər çəkmişdir. Onun yaradıcı illüstrasiyaları İllüstratorlar Cəmiyyətindən bir neçə mükafat qazanmış və əsərləri Nyu-York Tarix Cəmiyyətində sərgilənmişdir. Bu erkən nailiyyətlər onun mədəni hekayəni texniki ustalıqla birləşdirmək bacarığını üzə çıxarmışdır. Bu kimi keyfiyyətlər daha sonra onun heykəltaraşlıq fəaliyyətinin də əsasını təşkil etmişdir.

1975-ci ildə Förmen "National Lampoon" jurnalının üz qabığı üçün ilk canlı bədən qəlibini yaradır: bu, onun diqqətini ikiölçülü illüstrasiyadan heykəltaraşlığa doğru yönləndirən həlledici bir sınaq olur. 1976-cı ildən etibarən o, bölünmüş gövdələr, müxtəlif bədən hissələri və natamam fiqurlar üzərində işləməyə başlayır. Onun debüt fərdi sərgisi olan "X reytinqli fraqmentlər" (1978, "Fort Worth", Texas) mübahisəli mövzular səbəbilə cəmi bir gecə sonra bağlanır. Buna baxmayaraq, qalereya sahibi onun işlərini İsveçrədə "Art Basel" sənət yarmarkasında nümayiş etdirərək Förmenə ilk beynəlxalq auditoriyasını qazandırır.

Förmenin 1981-ci ildə Nyu-Yorkdakı Hansen Qalereyasında baş tutan ikinci fərdi sərgisi, onun yaradıcılığının əsasına çevriləcək mövzuların ilk təqdimatı olur. O bu sərgidə ilk üzgüçü heykəli olan “Katalina”nı da nümayiş etdirir. Bu, onun həmin heykəli və fraqmentləşdirilmiş əsərlər seriyasını satın alaraq ilk böyük himayədarı olmuş Malkolm Forbsun diqqətini çəkir.

Förmenin heykəlləri bütün dünyada nüfuzlu ictimai və institusional məkanlarda sərgilənmişdir. Onun açıq hava instalyasiyaları Nyu-Yorkda “Park Avenue”, “Central Park”, eləcə də Nyu-Orleandakı “Poydras Corridor” və “Avenue George V” kimi yerlərdə nümayiş olunmuşdur. Sənətkarın əsas fərdi muzey fəaliyyətləri arasında Romada “Palazzo Bonaparte”də keçirilən “Bədənin səsi” sərgisi, Florensiyadakı “Palazzo Strozzi”də, Sankt-Peterburqdakı Dövlət Ermitaj Muzeyində, Romadakı Müasir İncəsənət Qalereyasında, Neapoldakı “Fondazione Made in Cloister”da  və digər məkanlardakı bir çox sərgiləri xüsusi qeyd etmək olar. Förmenin əsərləri 2024-cü il Paris Olimpiya Oyunlarının mədəni proqramı çərçivəsində də tədqim edilmişdir.

Bu gün onun heykəlləri otuz dörddən çox muzey kolleksiyasında və dünyanın müxtəlif ictimai məkanlarında təmsil olunur. Onların əksəriyyəti Kaliforniyanın Sanniveyl və Nyu-Yorkun Pikskil şəhərlərinə məxsusdur. Məşhur ictimai kolleksiyaları Sankt-Peterburqdakı Dövlət Ermitaj Muzeyi, “Bass” İncəsənət Muzeyi, Nyu-Cersi ştatının Hemilton şəhərindəki “Grounds For Sculpture” Park-Muzeyi və El Paso Muzeyi kimi bir çox tanınmış müəssisələrdə yer alır.

Onun heykəlləri həmçinin Stiven Koen, Bill Klinton, Henri Kissincer, İmperator Hirohito, Andrea Boçelli, Malkolm Forbs kimi şəxsləri özündə birləşdirən tanınmış özəl kolleksiyaların da bir hissəsidir.

O, Quqqenhaym Muzeyi, Metropolitan İncəsənət Muzeyi və Vitni Muzeyi kimi aparıcı qurumlarda mühazirələr oxumuşdur. 2011-ci ildə o, Förmen Heykəltaraşlıq Fondunu təsis etmişdir. Bu fond sərgilər, qrantlar, rezidensiya proqramları və arxiv təşəbbüsləri vasitəsilə gənc, yeni formalaşan və daha az təmsil olunan sənətçilərə dəstək göstərmək məqsədi daşıyır. Onun xeyriyyə fəaliyyəti ictimai sənət layihələrini də əhatə edir. Bu layihələr sırasında fondun təşəbbüsü ilə Ohayodakı Mediçi İncəsənət Muzeyində Förmen Heykəl Parkının yaradılması üçün irimiqyaslı əsərlərin bağışlanması da yer alır.

Förmenin uğurları bir çox mükafatlarla dəyərləndirilmişdir. Bunların arasında Yunanıstanda “Le Soleil” Fondunun “Ömürlük nailiyyət mükafatı”, “Uwomen’s Network”un “İlhamlandırıcı qadın – ömürlük nailiyyət vizion mükafatı”, Beynəlxalq Heykəltaraşlıq Mərkəzinin “2026 Ömürlük nailiyyət mükafatı”, Avropa–Amerika Qadınlar Şurasının mükafatı, Florensiyanın “2001 Mediçi mükafatı”, Çanjoudakı Huan Tay Hu Muzeyinin “2016-cı ildə ən yaxşı şou” mükafatı, Pekin Biennalesinin “2008-ci ildə şounun ən yaxşısı” mükafatı, həmçinin heykəltaraşlıq sahəsində üstünlüyə görə verilən “Amelia Peabody” mükafatı yer alır.





Carole Feuerman was born in 1945 in Hartford, Connecticut, USA. In the second half of the seventies, after having developed works linked to the poetics of the fragment, theorized by postmodernist thought, she began to create full-figure sculptures with a strong realist impact. Her personal variation of pop marks the profound difference with the works created in the second half of the sixties by the hyperrealist sculptors. She is best known for her figurative sculptures depicting swimmers and dancers.

Feuerman's earliest encounters with art began in childhood. By the age of eleven, she was teaching classmates how to draw, though her interest in the human figure quickly stirred controversy. A daring nude sketch led to reprimand at school, but the episode convinced her that she possessed a gift worth pursuing. At age ten, after pleading with her mother, she began private art lessons. Her mother bought an oil painting kit with beautiful colored paints and brushes. She began by creating still life's, portraits, and landscapes. At twelve, she had already chosen art as her profession. In 1955, she demonstrated both vision and resourcefulness by helping her grandfather design a family home in upstate New York, spray-painting the outlines of rooms directly onto the lawn before the house was constructed.

Her formal studies began at Temple University and continued at the School of Visual Arts in New York, where she majored in illustration. Determined to support herself after being cut off financially by her parents, Feuerman worked as an illustrator while completing her degree. Through commissions in the music industry, she produced album covers for artists such as The Rolling Stones and Alice Cooper. She also made drawings for the op-ed page of the New York Times. Her imaginative illustrations won her multiple awards from the Society of Illustrators, and her work was exhibited at the New-York Historical Society. These early successes revealed her ability to merge cultural narrative with technical skill, qualities that would later define her sculptural practice.

In 1975, Feuerman created her first life cast for the cover of National Lampoon, a pivotal experiment that shifted her focus from two-dimensional illustration to sculpture. By 1976, she was producing fragmented torsos, limbs, and partial figures that reflected the postmodern interest in the fragment as a site of meaning. Her debut solo exhibition, "Fragments, Rated X" (1978) in Fort Worth, Texas, closed after a single night due to its provocative subject matter. Undeterred, the gallery owner presented her work at Art Basel in Switzerland, securing her first international audience.

Feuerman's second solo exhibition at the Hansen Gallery in New York in 1981 marked the introduction of themes that would become central to her practice. She presented her first swimmer, *Catalina*. The sculpture drew the attention of Malcolm Forbes, who acquired the piece along with her provocative fragmented series, becoming her first major patron.

Feuerman's sculptures have been exhibited in prominent public and institutional contexts worldwide. Outdoor installations have appeared on Park Avenue and in Central Park in New York, as well as in the Poydras Corridor in New Orleans, and Avenue George V. Major solo museum exhibitions include *The Voice of The Body* at Palazzo Bonaparte, Rome; Palazzo Strozzi, Florence; State Hermitage Museum, St. Petersburg; GAM, Galería d'Arte Moderna, in Rome, The Foundation Made in Cloister, in Naples, Italy, and many others. Her works were also selected for the cultural program of the 2024 Paris Olympics.

Today, her sculptures are represented in the collections of more than thirty-four museums and in various public spaces around the world. They are owned by the cities of Sunnyvale California and the City of Peekskill, New York. Her most renowned public collections include the State Hermitage Museum in St. Petersburg, the Bass Museum of Art, the Grounds for Sculpture Park and Museum in Hamilton, New Jersey, and the El Paso Museum.

Her sculptures are also part of prestigious private collections owned by prominent figures such as Steven Cohen, Bill Clinton, Henry Kissinger, Emperor Hirohito, Andrea Bocelli, and Malcolm Forbes.

She has lectured at leading institutions such as the Guggenheim Museum, the Metropolitan Museum of Art, and the Whitney Museum. In 2011 she founded the Feuerman Sculpture Foundation, dedicated to supporting emerging and underrepresented artists through exhibitions, grants, residencies, and archival initiatives. Through her Foundation, her philanthropy extends to public art projects, including the donation of monumental works to establish the Feuerman Sculpture Park at the Medici Museum of Art in Ohio.

Her achievements have been recognized with numerous awards, including the *Lifetime Achievement Award*, Le Soleil Foundation in Athens Greece, *Woman of Inspiration Lifetime Achievement Visionary Award* by the UWomen's Network, the 2026 *Lifetime Achievement Award* from the International Sculpture Center, from the European American Women's Council, the 2001 *Medici Award* from the City of Florence, *best in show* at the 2016 Huan Tai Hu Museum in Changzhou, best in the show at the 2008 Beijing Biennale, and the *Amelia Peabody Award* for excellence in sculpture.




400
0 grit

# SUDA YENİDƏN DOĞULANLAR

“Suda yenidən doğulanlar” konseptual olaraq Kerol Förmenin yaradıcılıq yolunun inkişafını şərtləndirərək onun 1970-ci illərdəki üzgüçü fiqurlarından, son onilliklərdəki miqrasiya mövzularına həsr olunmuş işlərinə qədər böyük dövrü əhatə edir. Bu sərgi əsasən üzgüçülərin heykəllərinə fokuslansa da, onları tək istiqamətin nəticəsi kimi qiymətləndirmək məhdud yanaşma olardı. Onun bədii yaradıcılıq yolu həmişə postmodernizm, “punk” mədəniyyəti, feminizm və insan fiquruna baxışını formalaşdıran gündəlik təcrübələr kimi çoxsaylı təsirlərin içində inkişaf edib.

Förmenin karyerası yenilik, dəqiqlik və emosional təsirə həsr olunmuş bir ömrün ifadəsidir. Superrealist heykəltaraş olaraq o, müasir incəsənətdə fiqurativ təsvirin imkanlarını genişləndirmiş, realizmə nəqli güc və simvolik dərinlik qazandıraraq onu yenidən canlandırmışdır. Böyük miqyaslı heykəltaraşlıqda, kişilərin üstünlük təşkil etdiyi bir sahədə çalışan qadın sənətçi kimi o, inklüzivlik və tanınma üçün yeni yollar açmışdır. Onun həm monumentallığı, həm də səmimiliyi ilə seçilən, eyni anda real və poetik təsir bağışlayan heykəlləri dünyadakı tamaşaçıları dayanmağa, düşünməyə və insan bədəninin sarsılmaz gücünü yenidən kəşf etməyə dəvət edir.

“Üzgüçülər seriyası” Förmenin incəsənətinin simvolik ifadəsidir. Qatran, boyanmış bürünc və paslanmayan poladdan hazırlanmış bu fiqurlar adətən üzgüçü papaqları və çimərlik geyimləri ilə təsvir olunur; onların dərisi isə diqqətlə işlənmiş su damcıları ilə sanki parıldayır. Bu heykəllər insanları düşüncə, tənhalıq və ya sakit daxili güc ilə təmas anlarında canlandırır. Onun okeandan çıxan bir qadınla təsadüfi qarşılaşmasından ilhamlanmış heykəli “Katalina”, suyun həm bir mövzu, həm də simvol kimi davamlı araşdırılmasının başlanğıcı olur. Förmen üçün su yaddaş, yenilənmə və sığınacaq mənalarını daşıyır. Günəşin istisi, dəniz və dəri üzərində qalan damcılar onun baxışında dəyişim, möhkəmlik, dözümlülük və yenidən doğuluşun bədii metaforları kimi çıxış edir.

O, daha çox üzgüçü heykəlləri ilə tanınsa da, Förmenin yaradıcılığı yağlı boya, fotoqrafiya, qrafika, videoqrafiya və bürünctökmə kimi müxtəlif sahələri də əhatə edir. Materialdan asılı olmayaraq, onun sənətə yanaşmasının əsasını dəqiqlik və hekayənin dərinliyi təşkil edir. Özünü "nəqli sənətkar" adlandıran Förmen üçün hər bir fiqur müəyyən bir hekayə daşıyır və bu hekayə duruş, jest və mimika vasitəsilə tamaşaçıya ötürülür. İzləyicilər bu obraza aktiv şəkildə qoşularaq hekayəni şəxsi şərhləri ilə tamamlayırlar. Beləliklə, dəqiq realizm və psixoloji təsir arasında qurulan bu dialoq onun yaradıcılığının mərkəzi elementlərindən biridir.

Onun yaradıcılığı boyunca insan bədəni həm mövzu, həm də şahid kimi çıxış edir. Kimlik, hərəkət və dözümlülük kimi mövzular təkrar-təkrar üzə çıxır — uşaqlıqda rəqs etməyi, gender gözləntiləri barədə düşüncələri və stereotiplərə meydan oxumaq istəyi bu mövzuların formalaşmasında mühüm rol oynayıb. "Güc" kimi əsərlərdə fiqurlar universal simvollara çevrilir, tamaşaçıya həmin jestlərdə və mövqedə özünü görmək imkanı yaradır. Onun heykəlləri insanları yalnız fiziki güc barədə deyil, həm də şəxsi və ictimai çətinliklərdən keçmək üçün lazım olan daxili güc barədə düşünməyə dəvət edir.

Sərgidə yer alan əsərlərdən biri olan "Dalğıc" insan ruhunun gücünü, dayanıqlılığını, mümkünsüzü bacarmaq cəsarətini və həyatda qalma mübarizəsini simvolizə edir. İki dalğıcın təsvir edildiyi "İkili dalğıc" heykəli onun bu günə qədər realist üslubunda olan ən böyük işidir; onun yaradıcılıq prosesindəki iki illik zəhmət və iradə əsərin mənasını daha da gücləndirir. Onun tək dalğıcı əks etdirən "Qızıl nisbət" heykəli isə mükəmməl tarazlığı ifadə edir.

"Suda yenidən doğulanlar" həm şəxsi bir hekayədir, həm də daha geniş sosial düşüncəni əks etdirir. Bu sərgi intim fraqmentlərdən başlayaraq sakit qətiyyətlə irəli addımlayan fiqurlara qədər uzanan bir yolu izləyir. Birlikdə baxıldıqda "Üzgüçülər" hərəkəti dayandırmayan insanların — suya və yaddaşa bağlı bədənlərin — sahilə çatma səsini yaradan kollektiv bir xor kimi görünür. Bu əsərlər vasitəsilə heykəltaraş empatiyanı təşviq etməyi, əvvəlcədən formalaşmış təsəvvürləri sorğulamağı və dəyişən dünyada aidiyyət axtarmağın mənası üzərində daha dərindən düşünməyi hədəfləyir.







# REBORN INTO THE WATER

*Reborn into the Water* conceptually frames the development of Carole Feuerman's artistic trajectory, spanning a large period from her works of the 1970s to the swimmer figures and migration themes of recent decades. While this exhibition centers on her sculptures of swimmers, it would be limiting to see them as the product of a single direction. Her artistic path has always unfolded through multiple influences postmodernism, punk culture, feminism, and the everyday experiences that shaped her way of seeing the human form.

Feuerman's career reflects a lifelong commitment to innovation, precision, and emotional resonance. As a superrealist sculptor, she has expanded the possibilities of figuration in contemporary art, reinvigorating realism with narrative power and symbolic depth. As a woman working in the male-dominated field of large-scale sculpture, she has opened pathways for inclusivity and recognition. Her sculptures, at once intimate and monumental, realistic and poetic, invite audiences worldwide to pause, reflect, and rediscover the enduring strength of the human form.

The *Swimmers Series* is emblematic of Feuerman's art. Executed in resin, painted bronze, and stainless steel, the figures often wear bathing caps and swimsuits, their skin glistening with meticulously applied water droplets. They capture individuals in moments of contemplation, solitude, or quiet strength. Inspired initially by a chance encounter with a woman emerging from the ocean, her sculpture *Catalina* set the course for an ongoing exploration of water as both subject and symbol. For Feuerman, water evokes memory, renewal, and sanctuary. The experience of sun, sea, and droplets clinging to the skin became metaphors for transformation, healing, and resilience.

Although she is best known for her swimmers, Feuerman's practice extends across a wide range of media, including oil paintings, photography, printmaking, video, and bronze casting. Regardless of material, her approach is characterized by precision and narrative depth. She describes herself as a narrative artist: each figure embodies a story, conveyed through pose, gesture, and expression. Viewers are invited to engage actively, completing the narrative through personal interpretation. This interplay between exacting realism and psychological suggestion is central to her practice.

Throughout her work, the human body acts as both subject and witness. Themes of identity, movement, and resilience recur — shaped by her experiences as a dancer in childhood, her reflections on gender expectations, and her desire to challenge stereotypes. In pieces like *Strength*, the figures become universal symbols, allowing viewers to see themselves reflected in the gestures and poses. Her sculptures invite audiences to consider not only physical strength, but also the inner strength required to navigate personal and societal challenges.

One of the works displayed in the exhibition, *The Diver*, symbolizes the strength of the human spirit, resilience, the courage to accomplish the impossible, and the struggle for survival. Her sculpture of two divers, called *The Double Diver* is her largest work in a realistic style to date, and the two years of effort and determination invested in its creation further strengthen the meaning behind the sculpture. Her single diver, called *The Golden Mean*, represents perfect balance.

*Reborn into the Water* is both personal narrative and broader social reflection. It follows a path from fragments of intimacy to figures who stride forward with quiet determination. Seen together, The Swimmers form a collective voice: individuals who keep moving, bodies bound to water and remembrance, arriving at the shore. Through these works, sculptor aims to encourage empathy, challenge preconceptions, and invite deeper consideration of what it means to search for belonging in a changing world.




**Mənim bədənim – mənim qaydalarım, 2024**
437 x 150 x 150 sm

**My Body My Rules, 2024**
437 x 150 x 150 cm









**Serenanın mübarizəsi, 2020**
96 x 213 x 81 sm

**Survival of Serena, 2020**
96 x 213 x 81 cm




**Hüzur, 2024**
425 x 230 x 150 sm

**Tranquility, 2024**
425 x 230 x 150 cm







**Nyu-York şəhərinin dəblisi, 2013**
160 x 90 x 71 sm

**New York City Slicker, 2013**
160 x 90 x 71 cm



**Ədalət, 2022**
284 x 218 x 218 sm

**Justice, 2022**
284 x 218 x 218 cm











**Kristina, 2013-14**
182 x 48 x 34 sm

**Christina, 2013-14**
182 x 48 x 34 cm



**Çimərlik topu ilə Bruk, 2017**
152 x 108 x 114 sm

**Brooke with Beach Ball, 2017**
152 x 108 x 114 cm





**Generalın qızı, 2008-22**
66 x 45 x 20 sm

**General's Daughter, 2008-22**
66 x 45 x 20 cm



**Moran, 2008**
66 x 45 x 20 sm

**Moran, 2008**
66 x 45 x 20 cm



**Kendal adası, 2014-17**
152 x 60 x 101 sm

**Kendall Island, 2014-17**
152 x 60 x 101 cm







**Tarazlıq, 2011-18**
91 x 81 x 45 sm

**Balance, 2011-18**
91 x 81 x 45 cm



**Dalğıc, 2018**
254 x 82 x 63 sm

**Diver, 2018**
254 x 82 x 63 cm

**Əzm, 2022**
86 x 30 x 30 sm

**Perseverance, 2022**
86 x 30 x 30 cm









**Müşahidə, 2018**
86 x 106 x 55 sm

**Contemplation, 2018**
86 x 106 x 55 cm



**Mütəfəkkir, 2019**
180 x 81 x 81 sm

**The Thinker, 2019**
180 x 81 x 81 cm







**Böyük Katalina, 2007**
157 x 96 x 43 sm

**Grande Catalina, 2007**
157 x 96 x 43 cm



**Sükut, 2022**
274 x 111 x 149 sm

**Serenity, 2022**
274 x 111 x 149 cm



**Dayaq mərkəzi, 2025**
135 x 56 x 41 sm

**Midpoint, 2025**
135 x 56 x 41 cm





**Üzmə çəmbəri, II variant, 2013**
43 x 81 x 38 sm

**Innertube Variant II, 2013**
43 x 81 x 38 cm



**Güc, 2017**
365 x 121 x 121 sm

**Strength, 2017**
365 x 121 x 121 cm







**Alov və ahəng, 2019**
304 x 116 x 71 sm

**Fire and Harmony, 2019**
304 x 116 x 71 cm



**Qızıl nisbətinin kənarında, 2014**
381 x 137 x 96 sm

**Beyond The Golden Mean, 2014**
381 x 137 x 96 cm



**Mona Liza, 2013**
93 x 106 x 167 sm

**Mona Lisa, 2013**
93 x 106 x 167 cm













**Əzm, 2022-23**
365 x 121 x 121 sm

**Perseverance, 2022-23**
365 x 121 x 121 cm



**Tutma anı, 2024**
216 x 66 x 54 sm

**Catch, 2024**
216 x 66 x 54 cm





**Topun üzərində Bibi, 2021**
163 x 117 x 86 sm

**Bibi on the Ball, 2021**
163 x 117 x 86 cm



**Cazibə, 2024**
336 x 91 x 76 sm

**Temptation, 2024**
336 x 91 x 76 cm





**Su xizəkçisi, 1984**
97 x 92 x 35 sm

**Water Skier, 1984**
97 x 92 x 35 cm



**Leda və qu quşu, 2014**
106 x 203 x 228 sm

**Leda and the Swan, 2014**
106 x 203 x 228 cm



**Rut, 1981**
155 x 54 x 33 sm

**Ruth, 1981**
155 x 54 x 33 cm





**Məhrəba ilə tatulu qız**
82 x 67 x 43 sm

**Towel on Back with Tattoo**
82 x 67 x 43 cm

*Kataloq Kerol Förmenin Heydər Əliyev Mərkəzi tərəfindən təşkil olunan "Suda yenidən doğulanlar" adlı fərdi sərgisi əsasında hazırlanmışdır.*

*Layihə koordinatorları:*
***Solmaz Eyvazova***
***Rasul Davudov***

*Sərginin tərtibatı:*
***Nigar Qardaşxanova***

*Redaktə və tərcümə:*
***Lamiə Quliyeva***

*Kataloqun dizaynı:*
***Əbdüləli Səmədov***

*Şəkillər rəssam-heykəltaraş tərəfindən təqdim edilmişdir.*

*Heydər Əliyev Mərkəzi, Bakı, Azərbaycan*
*www.heydaraliyevcenter.az*

*Catalogue published for "Reborn into the Water", an exhibition by Carole Feuerman, organized by the Heydar Aliyev Center.*

*Project Coordinators:*
***Solmaz Eyvazova***
***Rasul Davudov***

*Exhibition Assemblage:*
***Nigar Gardashkhanova***

*Editing and Translation:*
***Lamia Guliyeva***

*Catalogue Design:*
***Abdulali Samadov***

*Images were provided by the artist/sculptor.*

*Heydar Aliyev Center, Baku, Azerbaijan*
*www.heydaraliyevcenter.az*

Carole
Feuerman

SUDA YENİDƏN DOĞULANLAR
REBORN INTO THE WATER